

# Şərəfli ömür yolu...

## Azərbaycanın qəhrəman hərbi həkimi

Azərbaycan xanımları hər zaman qəhrəmanlıqları ilə örnək olub. Tariximiz təkcə oğullarımızın deyil, qəhrəman qadınlarımızın da şücaəti ilə zəngindir. Onların arasında diplomatlar, hökmdarlar, hətta sərkərdələr, döyüşçülər də olub. Tarixən erməni tacavüzkarlarına qarşı mübarizə aparan, şücaət göstərən qadınlarımız bu gün də yaddaşlarda, qəlblərdə yaşayır.

Qəhrəman xanımlarımızdan danışarkən Gültəkin Əsgərovanın adını xüsusi qeyd etmək yerinə düşər. Vətənin taleyi təhlükədə olanda, ərazilərimizə yad əllər uzananda yurdun müdafiəsinə qalxanlardan biri də adı Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılmış Gültəkin Əsgərova oldu.

O, 20 noyabr 1960-cı ildə Bakı şəhərində dünyaya göz açıb, 1978-ci ildə Nərimanov rayonundakı 200 saylı orta məktəbi əla qiymətlərlə bitirib. 1983-cü ildə Azərbaycan Dövlət Tibb Universitetinə daxil olub və təhsilini 1989-cu ildə başa vurub. Təhsil illərində Daxili İşlər Nazirliyinin Hərbi Hospitalında əvvəlcə kiçik tibb bacısı, sonra isə böyük tibb bacısı çalışıb. Ali məktəbi bitirdikdən sonra isə 8-ci Təcili Yardım Stansiyasında, daha sonra Uroloji Xəstəxanada anestezoloq-reanimatoloq vəzifəsində işləyib, həkimlərin dərin hörmətini qazanıb.

**“Qələbənin sonuna qədər buradayam”...**

Azərbaycan torpaqlarının işğalına biganə qala bilməyib, körpə qızını anasına əmanət edərək 4 aprel 1992-ci ildə könüllü olaraq cəbhəyə yollanıb, Turşsu, Şuşa xəstəxanalarında, Ağdamın Mahrızlı kəndindəki hospitalda hərbi həkim kimi fəaliyyət göstərib. Özü ilə 5 tibb bacısını götürərək könüllü döyüşə gedib. Şuşa şəhərinin həbsxanasında olanların qapısının açılmasında onun da xidməti olub. Həbsxananın qapısı açılmasaydı, orada olanlar əsir götürüləcəkdi.

1992-ci il mayın 8-də Şuşanın işğalından bir gün sonra Şuşanı sonuncu tərk edənlərdən biri olub. Anasına göndərdiyi məktubda yazmışdı: “Ana, salam. Mən sağ və salamatam, hər şey normaldır. Bizə yaxşı yemək verirlər. Mən qələbənin sonuna qədər buradayam. Şuşa alınana qədər! Bəlkə də indi alınmadı...”

**Aranzəmində açılan atəş...**

Şuşanın işğalından sonra, Gültəkin Əsgərova Laçının, daha sonra isə Qubadlının müdafiəsində iştirak edib. O, 1992-ci il mayın 14-də Ağdam istiqamətində gedən döyüşlərə yollanıb. Ağdamın Mahrızlı kəndindəki hospitalda hərbi həkim kimi yenidən xidmətə başlayıb. Aranzəmin yüksəkliyinin ətəyində onun tibbi xidməti üçün yer ayrılıb. Bura yaralıları hərbçilər gətirməliydi ki, o da əsgərləri müalicə etsin. Lakin atəş səslərinin gücləndiyini eşidib. Burada dayana bilməyib, Aranzəmin yüksəkliyinə qalxıb. Aranzəmin yüksəkliyi uğurunda gedən döyüşdə-1992-ci il 19 iyul saat 15:00-də şəhid olub.

G.Əsgərova Bakıda Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, Əminə adlı qızı yadigar qalıb. Təhsil aldığı 200 saylı orta məktəbə



**Gültəkin Əsgərovanın vəfatından 32 il ötür!**

onun adı verilib və büstü qoyulub. 20 noyabr 1993-cü il tarixli 31 saylı fərman ilə ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülüb.

*Yeganə BAYRAMOVA*